**Respublika.** - 2024.- 22 iyun. - № 128. - S. 5.

# Perspektivli və qlobal təşəbbüslü xarici siyasət

**Bayram Salmanov**

**Azərbaycan mühüm ticarət yollarının, müxtəlif sivilizasiyaların, mədəniyyətlərin və dinlərin qovuşduğu ölkədir. Cənubi Qafqazda İran və Rusiya ilə həmsərhəd olan Azərbaycan Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyaya çıxışı olan yeganə dövlətdir. Effektiv və balanslaşdırılmış xarici siyasət yürüdən Azərbaycan həm regional, həm də beynəlxalq arenada etibarlı tərəfdaş kimi tanınır.**

30 il ərzində Ermənistanla olan münaqişəyə baxmayaraq, Azərbaycan Avratlantik, digər regional və subregional qurumlarla əməkdaşlığı davam etdirib. Çoxvektorlu xarici siyasət nəticəsində ölkəmizin mövqeyi nüfuzlu beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən dəstəklənir. Belə ki, 2008-ci il mayın 14-də BMT Baş Assambleyasının 62-ci sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı mühüm qətnamə qəbul edilib.

Qətnamədə beynəlxalq humanitar hüququn bütün müvafiq normaları və insan haqları sahəsində beynəlxalq standartların keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış situasiyaya tətbiqi, eləcə də həmin bölgə və ətraf ərazilərdən qovulmuş əhalinin, onların varislərinin öz evlərinə qayıtmaq hüququnun təmin olunması öhdəliyi təsdiqlənib. Qeyd olunub ki, əhalinin qayıdışı insanlar arasında ünsiyyətin təşviqi və etimadın möhkəmlənməsinə əlverişli şərait yaradacaq. Layihədə mədəniyyət və dini abidələrin mühafizəsinin təmin olunmasının, həmçinin itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi yönündə təxirəsalınmaz tədbirlərin görülməsinin zəruriliyi vurğulanıb.

Türk dövlətləri ilə münasibətlərin möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir. Belə ki, 2009-cu ilin oktyabr ayında Naxçıvan şəhərində imzalanan müqavilə ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası yaradılmışdır. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin təşəbbüsü ilə yaradılan təşkilata sonradan Özbəkistan da daxil olmuşdur. Bu gün beynəlxalq səviyyədə böyük siyasi çəkiyə və nüfuza malik olan təşkilatın fəaliyyətinin əsas qayəsi türk dövlətləri arasında hərtərəfli əməkdaşlığa yol açmaqdır.

2010-cu ilin 19-20 noyabr tarixlərində Lissabonda keçirilən NATO Sammitinin Yekun Bəyannaməsində region ölkələrinin, o cümlədən Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi dəstəklənib, münaqişənin bu prinsiplər nəzərə alınmaqla həllinin vacibliyi vurğulanıb.

Azərbaycanın 2011-ci il oktyabrın 24-də 155 ölkənin dəstəyi ilə 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyə seçkilərdə qalib gəlməsi yüksək etimadın göstəricisidir.

2003-cü ildən başlayaraq Azərbaycanın xarici siyasətində Qərb dövlətləri, Rusiya, İran, Türkiyə, Çinlə əlaqələr və Ermənistan-Azərbaycan münaqişəsinin həlli əsasında ərazi bütövlüyünün təmini prioritet olub. Bu istiqamətdə Azərbaycan regional və beynəlxalq təşkilatlarda fəallığını ardıcıl olaraq artırıb, xüsusilə BMT üzvü olaraq ciddi diplomatik addımlar atıb. Rəsmi Bakının İslam ölkələri və Avropa İttifaqı ilə də əlaqələri keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Gürcüstan, İran, Türkiyə və Rusiya ilə əməkdaşlıqda böyük irəliləyiş əldə olunub. Azərbaycan Avropa İttifaqı ilə müxtəlif proqramlarda, o cümlədən "Şərq Tərəfdaşlığı" proqramında əməkdaşlığa böyük diqqət yetirib.

Xarici siyasətin yüksək dinamikası fövqündə Azərbaycanın prioritetləri müsbət hesab olunur. 2015-ci ildən bu istiqamətdə yeni tendensiyalar özünü göstərməyə başlayıb. Bunun bir çox səbəbləri var. Onların sırasında Aİ-nin xarici siyasətdə yeni strategiya müəyyən etməsi, Rusiya ilə Ukrayna arasında enerji böhranının dərinləşməsi, Azərbaycanın "Şərq Tərəfdaşlığı" proqramı ilə bağlı təkliflərinin reallaşması və Ermənistan-Azərbaycan münaqişəsinin həllinin zəruriliyi ayrıca yer tutur.

Rəsmi Bakı ABŞ, Avropa, Rusiya, Türkiyə və İranla da faydalı əməkdaşlığı davam etdirir. Həmçinin Azərbaycanın beynəlxalq təşkilatlarda - Qoşulmama Hərəkatı (QH), Türk Dövlətləri Təşkilatı (TDT) və İslam Əməkdaşlıq Təşkilatında (İƏT) fəallığı daha da artıb.

Xüsusilə 2016-cı ilin Aprel döyüşləri regionda Azərbaycanın geosiyasi yeri və rolunun yeniləşmə ərəfəsində olduğunu göstərdi. Buna paralel şəkildə Azərbaycan bütün beynəlxalq təşkilatlarda aktivliyini daha da artıraraq əməkdaşlıq təşəbbüsləri ilə çıxış etdi. Bu sırada Azərbaycan Prezidentinin ikitərəfli, üçtərəfli və sonralar dördtərəfli əməkdaşlıq təşəbbüslərini irəli sürməsi dövlətimizin siyasi kursunun potensialının nümunəsi oldu. Ölkəmizin xarici siyasətinin prioritetləri beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq daim təkmilləşdirilir.

Azərbaycan diplomatiyasının uğurları təkcə BMT ilə deyil, digər nüfuzlu təşkilatlarla, həmçinin ATƏT, NATO ilə sıx əlaqələr sayəsində əldə olunur.

Azərbaycan müstəqilliyin bərpasının ilk günlərindən etibarən İslam ölkələri ilə kifayət qədər geniş əlaqələrə malikdir, o cümlədən İƏT-in fəal üzvüdür. İƏT həm İkinci Qarabağ müharibəsi zamanı, həmçinin postmüharibə dövründə Azərbaycanın haqq işini, ərazi bütövlüyünü dəstəkləyən təşkilatlardan biri olub.

Azərbaycanda 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi ilə müsəlman ölkələri, eləcə də bütün sülhpərvər bəşəriyyət üçün yeni platforma yaradıldı. Həmin il paytaxt Bakıda "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları və digər mühüm tədbirlərin keçirilməsi İslam dünyasının Azərbaycana inamını artırdı və ölkənin İslam dünyası ilə həmrəyliyini gücləndirdi.

Eyni zamanda dünyanın 120 ölkəsi arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı da məhz Azərbaycanın sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşayıb.

Azərbaycan İslam dünyasında da etibarlı tərəfdaş, onun maraqlarını daim müdafiə edən bir dövlət kimi tanınır. Bu ilin əvvəlində ölkəmizə səfər edən ilk dövlət başçısı məhz Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan olub. Səfər zamanı Azərbaycan və BƏƏ arasında iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən mühüm sazişlər imzalanıb. Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında diplomatik əlaqələrin yaranmasından etibarən ölkələr arasında ikitərəfli əlaqələrdə müsbət dinamika müşahidə olunur. Əmirliklər hazırda Azərbaycanın əsas enerji və Körfəz Əməkdaşlıq Şurasında (KƏŞ) ən böyük ticari tərəfdaşıdır.

**Azərbaycan diplomatiyasının qarşısın**

da duran ən mühüm vəzifə Qarabağ və Şərqi Zəngəzur bölgəsinin Ermənistanın işğalından azad edilməsi, ölkənin ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığının təmin edilməsi idi. Ölkə başçısının xalqın iradəsinə əsaslanan düşünülmüş daxili və xarici siyasi kursu ona müstəqil milli siyasət yürütmək imkanı verdi. 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə antiterror tədbirləri nəticəsində Azərbaycan öz torpaqlarını işğaldan azad edərək, ərazi bütövlüyünü tam təmin etdi. Bu qələbə Ali Baş Komandanın əzmi ilə yanaşı, xalqın birliyinin və inamının bariz göstəricisi oldu.

İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda fərqli geosiyasi mənzərənin formalaşması bölgə dövlətlərinin xarici siyasətində bir sıra dəyişiklikləri gündəmə gətirib. Belə ki, Azərbaycan lider dövlət olaraq xarici siyasətdə ən fəal mövqe tutur. Rəsmi Bakı səmərəli qlobal təşəbbüsləri ilə beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verir, ölkənin təşəbbüsü və iştirakı ilə transmilli layihələr uğurla gerçəkləşdirilir. Bununla bağlı 2022-ci ildə Prezidentin sədrliyi ilə keçirilən ilin birinci rübünün yekunlarına həsr edilmiş müşavirədə ölkə başçısı İlham Əliyev xarici siyasətin yeni prioritetləri haqqında çox əhəmiyyətli fikirlər ifadə edib: "... Keçən il ölkəmizin həyatında çox əlamətdar bir il olmuşdur. Müharibədən sonra birinci il olmuşdur. Əlbəttə ki, müharibədən sonrakı dövr üçün keçən ilin çox böyük əhəmiyyəti olmuşdur. Bizim əsas məqsədimiz keçən il həm azad edilmiş torpaqlarda bərpa işlərinə start vermək idi, eyni zamanda, beynəlxalq müstəvidə yeni reallıqları qəbul etdirmək idi və hər iki istiqamət üzrə nəticələr göz qabağındadır".

Postmünaqişə dövrünün birinci ilinin nəticələri deməyə əsas verir ki, qarşımızda duran bütün vəzifələr icra edilmişdir. Biz, ilk növbədə, beynəlxalq təşkilatlarla öz təmaslarımızı, fəal əməkdaşlığımızı davam etdirmişik və dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etmişlər. İlk növbədə, BMT xətti ilə Şuşa şəhərində bu yaxınlarda beynəlxalq tədbir keçirilmişdir - Azərbaycanın BMT-yə üzvlüyünün 30 illiyinə həsr edilmiş tədbir. Bu, çox əlamətdar hadisə idi. Bu, bir daha onu göstərdi ki, BMT Azərbaycanın ərazi bütövlüyünü tam tanıyan qurumdur. Əlbəttə ki, biz BMT-yə üzv olandan sonra işğalla üzləşdiyimiz dövrdə gördük ki, BMT, onun Təhlükəsizlik Şurası ədalətli qərarlar qəbul etmişlər. Əfsuslar olsun ki, bu qərarlar 30 ilə yaxın bir müddətdə kağız üzərində qalmışdır. Ancaq Qarabağ münaqişəsinin həlli, Azərbaycan tərəfindən birtərəfli həlli, eyni zamanda, BMT-nin üzərindən bu yükü götürmüş oldu. Şuşa şəhərində bu tədbirin, bir daha demək istəyirəm ki, xüsusi əhəmiyyəti var idi və təsadüfi deyil ki, Ermənistanda bu, növbəti panikaya, isterikaya səbəb olmuşdur".

Müasir dövrdə qlobal səviyyədə intensiv geosiyasi proseslərin getdiyi birmənalı qəbul edilir. Bu vəziyyətdə müstəqil dövlətin xarici siyasəti də dinamik olmalı, mühüm yeni geosiyasi faktorlara adekvat şəkildə qurulmalıdır. Yeni dönəmin tələblərini və çağırışlarını nəzərə alaraq güclü siyasət yürütmək müstəqil dövlətçiliyin ən vacib göstəricilərindən biridir. Azərbaycanın 1993-cü ilin iyunundan bəri apardığı xarici siyasət həmin aspektdə daim diqqət mərkəzində olub. Xüsusilə XXI əsr başlayandan sonra dünya miqyasında geosiyasi mənzərənin dinamikası yeni çalarlar kəsb edir və müstəqil siyasət yürüdən dövlətlər ona uyğun kurs müəyyənləşdiriblər.

Xarici siyasət kursu Azərbaycana fəal və təşəbbüskar olmağa geniş imkanlar yaradır. Bunun sayəsində ölkə rəhbərliyi geosiyasi dəyişikliklərə çevik reaksiya verir və xarici siyasətin prioritetləri üzrə

yeni faktorları müəyyənləşdirir. XXI əsrin üçüncü onilliyinə qədər olan müddətdə Prezident İlham Əliyevin fəaliyyəti olduqca məhsuldar və uğurludur. 2020-ci ilin payızında 44 günlük müharibə regionda geosiyasi vəziyyəti keyfiyyətcə dəyişmiş oldu. Bu cür yenilik fonunda xarici siyasətin prioritetlərində də yenilənmələr olmalı idi.

1990-cı illərdə müstəqil Azərbaycanın banisi Heydər Əliyev tərəfindən əsası qoyulan çoxvektorlu və balanslaşdırılmış xarici siyasət strategiyasını Prezident İlham Əliyev uğurla davam etdirir. Ölkə başçısı qarşıya qoyduğu strateji hədəflərə çatmağa nail oldu, Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrildi.

Azərbaycan son 20 il ərzində təkcə regionda deyil, bütün postsovet məkanında, eləcə də Avropa və Asiyada müstəqil siyasət yürüdən bir dövlət kimi öz nüfuzunu yüksəltməyə müvəffəq olub. İqtisadi, siyasi, mədəni və digər sahələrdə əldə edilən uğurlar sayəsində Azərbaycan Cənubi Qafqaz bölgəsində əsas güc mərkəzinə çevrilib. Əminliklə demək olar ki, bu gün regionda heç bir strateji əhəmiyyətli layihə Azərbaycanın rəyi nəzərə alınmadan həyata keçirilə bilməz. Ölkənin beynəlxalq aləmdəki bu mövqeyi Prezident İlham Əliyevin uğurlu xarici siyasət strategiyasının nəticəsidir.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanın milli maraqlara əsaslanan xarici siyasəti bundan sonra da xalqın dəstəyinə söykənməklə, regionda və dünyada sülhün və təhlükəsizliyin təmin edilməsinə, eləcə də beynəlxalq əməkdaşlığın genişlənməsinə xidmət edəcək.